**“Təsdiq edirəm”**

**Odlar Yurdu Universitetinin rektoru**

**prof. Ə.A. Vəliyev**

**_______________________________**

**“24” noyabr 2025-ci il**

# ODLAR YURDU UNİVERSİTETİNDƏ PROFESSOR, DOSENT, BAŞ MÜƏLLİM VƏ MÜƏLLİM VƏZİFƏLƏRİNƏ YÜKSƏLMƏ VƏ TƏYİNAT QAYDALARI HAQQINDA

## Ə S A S N A M Ə

**BAKI – 2025**

## 1. Ümumi müddəalar

1.1. Əsasnamə Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununa, Əmək Məcəlləsinə, “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması Qaydaları Haqqında” Əsasnaməyə, Ali Attestasiya Komissiyasının (AAK) normativ sənədlərinə və Odlar Yurdu Universitetinin (bundan sonra – Universitet) Nizamnaməsinə əsaslanır. Bu Əsasnamə Universitetin Elmi Şurasının qəbul etdiyi qərar əsasında Universitetin rektoru tərəfindən tərəfindən təsdiqlənmişdir.

1.2. Bu Əsasnamə Universitetdə professor, dosent, baş müəllim və müəllim vəzifələrinə namizədlərin təyin olunması qaydalarını tənzimləyir.

1.3. Universitetdə professor, dosent, baş müəllim və müəllim vəzifələrinə təyinat müvafiq kafedra müdirinin təqdimatı əsasında Universitet rektorunun əmri ilə həyata keçirilir. Bu zaman, həmin əməkdaşla universitet arasında bir il müddətinə əmək müqaviləsi bağlanılır.

1.4. Professor, dosent, baş müəllim və müəllim vəzifələrinə peşəkar hazırlıq səviyyəsi yüksək olan, uyğun elmi və ya praktik fəaliyyət sahələrində nəzərəçarpan nəticələr əldə etmiş, tələb olunan elmi-pedaqoji və ya istehsalat təcrübəsinə malik, etik dəyərlərə sadiq, ali təhsilli şəxslər təyin edilir.

1.5. Müvafiq elmi və peşəkar göstəricilərə, iş təcrübəsinə sahib olan şəxslər Universitetdə saatlıq əsasda və ya əvəzçilik qaydasında pedaqoji fəaliyyətə rektorun qərarı ilə, müddətli əmək münasibətləri çərçivəsində cəlb edilə bilərlər.

1.6. Bu sənədin qəbul edilməsində əsas məqsəd professor-müəllim heyəti vəzifələrinin tutulmasında şəffaflıq və obyektivliyi təmin edən effektiv mexanizmin formalaşdırılması, elmi və pedaqoji fəaliyyətin təşviq olunmasıdır.

**2. Professor vəzifəsinə yüksəlmə və təyinat üzrə tələblər**

2.1. Universitetdə professor vəzifəsinə təyinat müvafiq elmi və pedaqoji fəaliyyət göstəriciləri məlum olan namizədlər sırasından Əlavədə göstərilən bal sisteminə müvafiq olaraq, kafedra müdirinin təqdimatı əsasında Universitetin rektorunun əmri ilə həyata keçilir. Bu vəzifəyə müvafiq elm sahəsi üzrə elmlər doktoru yaxud fəlsəfə doktoru elmi dərəcələrinə və AAK tərəfindən verilmiş professor və dosent elmi adlarına malik olan şəxslər iddia edə bilərlər.

2.2. Elmlər doktoru elmi dərəcəsi olan, AAK tərəfindən dosent elmi adı almış iddiaçılar Professor vəzifəsinə aşağıdakı tələblər ödənildiyi halda təyin edilə bilərlər:

- iddiaçının Ali Təhsil Müəssisəsində qüsursuz və müvəffəqiyyətlə azı 5 (beş) il, OYU-da isə ən azı 1 (bir) il elmi-pedaqoji iş stajı olmalıdır;

- iddiaçı müvafiq ixtisas üzrə dərc olunmuş azı 5 (beş), o cümlədən Web of Science və ya Scopus elmmetrik bazalarının dövri elmi nəşrlərində yer almış humanitar və ictimai elmlər üzrə azı 2 (iki), dəqiq və təbiət elmləri üzrə azı 3 (üç) elmi məqalə təqdim etməlidir (müəllif sayı nəzər alınmaqla) (Bax: Əlavə) və ya iddiaçının elmi rəhbərliyi və ya məsləhətçiliyi ilə ixtisas üzrə hazırladığı azı 2 (iki) mütəxəssis elmi dərəcə almalıdır.

- iddiaçı müvafiq ixtisas üzrə həmmüəllifsiz monoqrafiya (Odlar Yurdu Universitetinin Elmi Şurasının qərarı ilə çapa tövsiyə edilməli və həcmi 400 000 (dörd yüz min) işarədən az olmamalı) nəşr etdirməlidir. (Bax: Əlavə)

- iddiaçı müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə azı 5 (beş) (o cümlədən azı 2-i (ikisi) – beynəlxalq) (müəllif sayı nəzər alınmaqla) (Bax: Əlavə) məruzə və tezislər dərc etdirməlidir.

- iddiaçı dosent elmi adı aldıqdan sonra müvafiq ixtisas üzrə həmmüəllifsiz tədris-metodiki iş və ya işlər (Müvafiq qurumun qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi 400 000 (dörd yüz min) işarədən az olmamamaqla) dərslik və ya dərs vəsaitləri təqdim etməlidir. (Bax: Əlavə)

2.3. Fəlsəfə doktoru elmi dərəcəsi olan, AAK tərəfindən dosent elmi adı almış iddiaçılar üçün Professor vəzifəsi aşağıdakı tələblər ödənildiyi halda verilir:

- iddiaçının azı 10 (on) il elmi-pedaqoji iş stajı olmalıdır;

-iddiaçı AAK tərəfindən dosent elmi adı aldıqdan sonra Ali Təhsil Müəssisəində azı 5 (beş) il, OYU-da isə azı 3 (üç) il qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

- iddiaçı müvafiq ixtisas üzrə həmmüəllifsiz monoqrafiya (Odlar Yurdu Universitetinin Elmi Şurasının qərarı ilə çapa tövsiyə edilməli və həcmi 400 000 (dörd yüz min) işarədən az olmamalı) nəşr etdirməlidir. (Bax: Əlavə)

- iddiaçı AAK tərəfindən dosent elmi adı aldıqdan sonra müvafiq ixtisas üzrə həmmüəllifsiz tədris-metodiki iş və ya işlər (müvafiq qurumun qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi 400 000 (dörd yüz min) işarədən az olmamaqla) dərslik və ya dərs vəsaitləri təqdim etməlidir. (Bax: Əlavə)

- iddiaçı AAK tərəfindən dosent elmi adı aldıqdan sonra müvafiq ixtisas üzrə azı 15 (on beş), o cümlədən Web of Science və ya Scopus elmmetrik bazalarının dövri elmi nəşrlərində yer almış humanitar və ictimai elmlər üzrə azı 5 (beş) dəqiq və təbiət elmləri üzrə azı 10 (on) elmi məqalə təqdim etməli (müəllif sayı nəzərə alınmaqla) (Bax: Əlavə) və ya iddiaçının Google Scholarda H-indeksi humanitar və ictimai elmlər üzrə azı 5 (beş), dəqiq və təbiət elmləri üzrə azı 10 (on) olmalıdır (özünə istinadlar istisna olmaqla) və ya ona AAK tərəfindən dosent

elmi adı verildikdən sonra müvafiq ixtisas üzrə azı 10 (on), o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı 3 (üç), dəqiq və təbiət elmləri üzrə azı 7 (yeddi) elmi məqalə təqdim etməlidir və iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə hazırladığı azı iki mütəxəssis elmi dərəcə almalıdır.

2.4. AAK tərəfindən professor elmi adı verilmiş iddiaçılara bu əsasnamənin 2.2. və 2.3. bəndlərində qeyd olunmuş tələblər şamil edilmir və onlar müvafiq kafedra müdirinin təqdimatı əsasında Universitet rektoru tərəfindən verilmiş əmrlə Universitetin professoru vəzifəsinə təyin edilə bilərlər.

**3. Dosent vəzifəsinə yüksəlmə və təyinat üzrə tələblər**

3.1. Universitetdə dosent vəzifəsinə təyinat müvafiq elmi və pedaqoji fəaliyyət göstəriciləri məlum olan namizədlər sırasından kafedra müdirinin təqdimatı əsasında Universitetin rektorunun əmri ilə həyata keçilir. Bu vəzifəyə müvafiq elm sahəsi üzrə elmlər doktoru yaxud fəlsəfə doktoru elmi dərəcələrinə malik olan şəxslər, eləcə də, Universitetdə 15 (on beş) il elmi-pedaqoji iş stajına malik olan departament (şöbə) rəhbərləri iddia edə bilərlər.

3.2. Fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi olan iddiaçılar üçün Dosent vəzifəsi aşağıdakı tələblər ödənildiyi halda verilir:

- iddiaçının qüsursuz və müvəffəqiyyətlə azı 3 (üç) il elmi-pedaqoji iş stajı olmalıdır, OYU-da isə ən azı 1 (bir) il elmi-pedaqoji iş stajı olmalıdır;

- iddiaçı müvafiq ixtisas üzrə həmmüəllifsiz tədris-metodiki iş və ya işlər (müvafiq qurumun qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və

ümumi həcmi 200 000 (iki yüz min) işarədən az olmamalı) təqdim etməlidir. (Bax: Əlavə)

- iddiaçı müvafiq ixtisas üzrə azı 3 (üç), o cümlədən Web of Science və ya Scopus elmmetrik bazalarının dövri elmi nəşrlərində yer almış humanitar və ictimai elmlər üzrə azı 1 (bir), dəqiq və təbiət elmləri üzrə azı 2 (iki) elmi məqalə (müəllif sayı nəzərə alınmaqla) (Bax: Əlavə) təqdim etməlidir.

- iddiaçı müvafiq ixtisas üzrə respublika və ya beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə azı 2 (iki) məruzə və tezislər (müəllif sayı nəzər alınmaqla) (Bax: Əlavə) dərc etdirməlidir.

**4. Baş müəllim vəzifəsinə təyinat üzrə tələblər**

4.1. Baş müəllim bir qayda olaraq ən azı 3 illik elmi-pedaqoji stajı olan fəlsəfə doktoru elmi dərəcəsi olanlar (elmlər namizədləri) və ya ən azı 5 illik elmi-pedaqoji stajı və ya əmək fəaliyyəti, çap olunmuş elmi-metodiki işləri olan yüksək ixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.

4.2. Baş müəllim vəzifəsi aşağıdakı tələblər ödənildiyi halda verilir:

4.2.1. OYU-da ən azı 1 illik elmi-pedaqoji stajı olan fəlsəfə doktoru elmi dərəcəsi olanlar (elmlər namizədləri) üçün:

- ən azı 3 elmi məqalə (onlardan ən azı 1-i Web of Science və ya Scopus elmmetrik bazalarına daxil olmaqla) nəşr etdirməlidir;

- 3 konfrans tezisi (onlardan ən azı 1-i beynəlxalq konfrans olmaqla) nəşr etdirməlidir;

- kafedranın metodik işlərində aktiv iştirak etməli, tədris-metodiki vəsait-lərin hazırlanmasına töhfə verməlidir (rəyçi, müəllif və yaxud həmmüəllif qismində).

4.2.2. Ən azı 5 illik elmi-pedaqoji stajı (1 ili OYU-da olmaq şərti ilə) və əmək fəaliyyəti, çap olunmuş elmi-metodiki işləri olan yüksək ixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər) üçün:

- ən azı 5 elmi məqalə (onlardan ən azı 1-i Web of Science və ya Scopus elmmetrik bazalarına daxil olmaqla) nəşr etdirməlidir;

- 3 konfrans tezisi (onlardan ən azı 1-i beynəlxalq konfrans olmaqla) nəşr etdirməlidir;

- kafedranın metodik işlərində aktiv iştirak etməli, tədris-metodiki vəsait-lərin hazırlanmasına töhfə verməlidir (rəyçi, müəllif və yaxud həmmüəllif qismində).

**5. Müəllim vəzifəsinə təyinat üzrə tələblər**

5.1. Universitetdə müəllim vəzifəsinə, tədris edəcəyi fənlərə aid ixtisas üzrə ali təhsilli, yüksək bilik və bacarıqlara malik olan şəxslər təyin edilə bilərlər.

5.2. Universitetdə müəllim vəzifəsinə təyinatlar aparılarkən iddiaçıların elm istiqamətində fəallığı nəzərə alınmalıdır.

**Hazırladı**

**Strateji inkişaf və beynəlxalq**

**əlaqələr üzrə prorektor** **i.e.d., prof. Elşad Məmmədov**

**ƏLAVƏ**

# Dosent və professor vəzifələrinə yüksəlmək və təyinat üçün bal sistemi

## Dosent vəzifəsinə yüksəlmək və təyinat üçün

İddiaçının ən azı **3** il elmi-pedaqoji iş stajı olmalıdır və PhD dissertasiyasını müdafiə etdikdən sonra OYU-da ən azı **1** il elmi-pedaqoji fəaliyyəti tələb olunur.

Şərtlər üçün Odlar Yurdu Universiteti APQİ (Akademik Performansın Qiymətləndirilməsi İndikatorları) meyarları əsas tutulur. (bax: OYU APQİ)

| **ŞƏRTLƏR** | **BAL** (minimum) |
|---|---|
| PhD dissertasiyasını müdafiə etdikdən sonra<br><br>1) Web of Science məlumat bazasında indekslənən AHCI, SCI - genişləndirilmiş, SCI ve SSCI jurnallarında nəşr edilmiş məqalə (20 bal);<br>2) Scopus məlumat bazaslnda indekslənən jurnallardakı məqalə (15 bal);<br>3) Web of Science'da indekslənən ESCI jurnallardakı məqalə (15 bal);<br>4) Web of Science CPCI çərçivəsində indekslənən indeksli konfrans materialları (10 bal). | 20 |
| **Azərbaycan, Türkiyə və MDB ölkələrinin yüksək reytinqli nəşriyyatları tərəfindən çap edilmiş həmmüəllifsiz elmi əsər, monoqrafiya, dərs vəsaiti**<br><br>Beynəlxalq (7 bal)<br>Yerli (5 bal) | 10 |
| 1) Sahə indeksli beynəlxalq jurnallarda məqalə (10 bal).<br>2) Türkiyə və MDB ölkələrinin AAK-ları tərəfindən qəbul edilən jurnallarda məqalə (10 bal). | 10 |
| **CƏMİ** | **40** |

## Professor vəzifəsinə yüksəlmək və təyinat üçün

İddiaçının ən azı **5** il elmi-pedaqoji iş stajı olmalıdır və AAK tərəfindən dosentlik aldıqdan sonra OYU-da ən az **1** il elmi-pedaqoji fəaliyyəti tələb olunur.

Şərtlər üçün Odlar Yurdu Universiteti APQİ (Akademik Performansın Qiymətləndirilməsi İndikatorları) meyarları əsas tutulur. (bax: OYU APQİ)

| **ŞƏRTLƏR** | **BAL** (minimum) |
|---|---|
| 1) Web of Science məlumat bazasında indekslənən AHCI, SCI - genişləndirilmiş, SCI ve SSCI jurnallarında nəşr edilmiş məqalə (20 bal);<br><br>2) Scopus məlumat bazaslnda indekslənən jurnallardakı məqalə (15 bal) | 15 |
| 3) Web of Science - da indekslənən ESCI jurnallardakı məqalə (15 bal);<br><br>4) Web of Science CPCI çərçivəsində indekslənən indeksli konfrans materialları (10 bal). | 15 |
| **Azərbaycan, Türkiyə və MDB ölkələrinin yüksək reytinqli nəşriyyatları tərəfindən çap edilmiş həmmüəllifsiz elmi əsər, monoqrafiya, dərs vəsaiti**<br><br>Beynəlxalq (15 bal)<br>Yerli (10 bal) | 20 |
| 1)Sahə indeksli beynəlxalq jurnallarda məqalə (10 bal).<br><br>2)Türkiyə və MDB ölkələrinin AAK-ları tərəfindən qəbul edilən | 10 |

| | |
|---|---|
| jurnallarda məqalə (10 bal). | |
| **CƏMİ** | **60** |

**Qeyd: Çoxmüəllifli nəşrlərdə balların hesablanması aşağıdakı cədvələ uyğun hesablanır.**

| **Müəllif sayı** | **1** | **2** | **3** | **4** | **5** | **5+** |
|---|---|---|---|---|---|---|
| **Tələb olunan minimal bal** | **20** | **14** (20 x 0,7) | **10** (20 x 0,5) | **6** (20 x 0,3) | **4** (20 x 0,2) | **2** (20 x 0,1) |
| **Tələb olunan minimal bal** | **15** | **10,5** (15 x 0,7) | **7,5** (15 x 0,5) | **4,5** (15 x 0,3) | **3** (15 x 0,2) | **1,5** (15 x 0,1) |
| **Tələb olunan minimal bal** | **10** | **7** (10 x 0,7) | **5** (10 x 0,5) | **3** (10 x 0,3) | **2** (10 x 0,2) | **1** (10 x 0,1) |

***Əsasnamə Odlar Yurdu Universitetinin 24.11.2025-ci il tarixli 03 saylı iclas qərarı ilə təsdiqlənmişdir.***